NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## Elmi araşdırmalar jurnalı

# 2-(25)2023



Bakı – "Elm və təhsil" – 2023

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 14 sentyabr 2023-cü il tarixli (protokol №4)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Başirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 2 (25)**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2023, 136 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
# *Elmi araşdırmalar jurnalı*

*№ 2. 2023(25)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Nizami Gəncəvinin "Xəmsə"sində türk qatı və türk milli kimliyi düşüncələri
doi.org/10.30546/2702-0034.2023.2.25.7

*QAYIBOV Seyran.*
Yarımçıq hekayə: Əmin Abidin "Həsrət ili" hekayəsinin transliterasiyası və təhlili
doi.org/10.30546/2702-0034.2023.2.25.30

*SADIQOVA Rəhilə.*
Zərif hami, səxavətli fədai: Həmidə Cavanşir-Məmmədquluzadə
doi.org/10.30546/2702-0034.2023.2.25.41

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*ƏSƏDULLAYEVA Nuranə.*
Tarixi həqiqət və bədii gerçəklik
doi.org/10.30546/2702-0034.2023.2.25.51

*HEYDƏROVA Sevinc.*
Azərbaycan yazıçılarının qurultayları, ədəbi müzakirələr və tədbirlər
"Ədəbiyyat və incəsənət" qəzetinin səhifələrində
doi.org/10.30546/2702-0034.2023.2.25.57

*XƏLİLOVA Güllü.*
Sabir Rüstəmxanlının 44 günlük Vətən müharibəsinə həsr etdiyi "Qarabağa dönüş" poeması
doi.org/10.30546/2702-0034.2023.2.25.71

*MUSAYEVA İradə.*
İsa Muğannanın roman yaradıcılığında yeni ədəbi estetika və fəlsəfi düşüncə motivləri
doi.org/10.30546/2702-0034.2023.2.25.84

*MUXTAROVA Dinara.*
Художественная литература и публицистический жанр: глобальные
проблемы публицистики XXI века
doi.org/10.30546/2702-0034.2023.2.25.101

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ƏLİYEVA Nailə.*
Nizami muzeyinin UNESCO əhəmiyyətli eksponatı
doi.org/10.30546/2702-0034.2023.2.25.117

*YAQUBƏLİ Rəhimə.*
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən yubiley
mərasimləri və yaradıcılıq gecələri
doi.org/10.30546/2702-0034.2023.2.25.122

*Risalə. Elmi araşdırmalar jurnalı.*
**https://doi.org/10.30546/2702-0034.2023.2.25.41** *№2.2023(25) 41-48*

**Rəhilə SADIQOVA**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**rehile.sadiqova_87@mail.ru**
**ORCID: 0000-0002-2936-6159**

# ZƏRİF HAMİ, SƏXAVƏTLİ FƏDAİ: HƏMİDƏ CAVANŞİR-MƏMMƏDQULUZADƏ

**Açar sözlər:** Həmidə Cavanşir-Məmmədquluzadə, maarif, məktəb, xeyriyyəçilik

**Keywords:** Khamida Javanshir-Mammadguluzade, enlightenment, school, philanthropy

**Ключевые слова:** Гамида Джаваншир-Мамедкулизаде, просвещение, школа, благотворительность

**Giriş.** Azərbaycan xalqının mədəni inkişaf tarixində əvəzsiz rol oynamış şəxsiyyətlərin sırasında qadın maarifçilərin adı xüsusi ehtiramla yad edilməyə layiqdir. Belə ki, bu qadınlar öz dövrləri çərçivəsində ilklərə imza ataraq çətin vəzifələrin öhdəsindən məharətlə gəlməyi bacarmış, cahiliyyət, mövhumata qarşı mübarizə aparmış, azadlıq amalını, xalqın gözünü açan maarif və mədəniyyəti təbliğ etmişlər. XIX əsrin sonları – XX əsrin əvvəllərində yaşayıb məhsuldar ictimai fəaliyyətlə məşğul olmuş həmin ziyalı və maarifçi xanımlardan pedaqoq Badisəba Köçərli (1881-1954), Tiflis müəllimlərinin nümayəndəsi Sara xanım Talışinskaya (1890-1965), publisist Şəfiqə xanım Əfəndizadə (1882-1959), Bakı Qadınlar Xeyriyyə Cəmiyyətinin üzvü Sara xanım Vəzirova (1889-1961), Bakıda ali-ibtidai qız məktəbinin təşəbbüskarı və müdiri Rəhilə Hacıbababəyova (1881-1954), Bakıda darülmüəllimatın təşkilatçısı və ilk müdiri Mədinə Qiyasbəyli (1889-1938), Gəncədəki qız məktəbinin müdiri Xədicə Ağayeva (1885-1958), Bakıda ilk qız məktəbinin yaradıcısı Hənifə Məlikova-Zərdabi (1856-1929) və bir çoxlarının adlarını çəkmək olar. Belə işıqlı Azərbaycan qadınlarından biri də Həmidə Cavanşir-Məmmədquluzadə (19.01.1873–06.02.1955) olmuşdur. Həmidə xanımın 150 illik yubileyi çərçivəsində ərsəyə gələn bu məqalənin əsas məqsədi onun çoxşaxəli ictimai fəaliyyətinə toxunmaq və xüsusilə xeyriyyəçilik istiqamətində həyata keçirdiyi işlərə yeni aspektdən yanaşmaqdır.

**Həmidə Cavanşirin çoxşaxəli fəaliyyəti.** Həmidə xanımın Azərbaycan xalqı, xüsusilə Qarabağ əhalisinin rifahı üçün həyata keçirdiyi xeyriyyə işləri kifayət qədər geniş miqyasa malikdir. Biz daha çox Həmidə xanımın sosial-ictimai fəaliyyəti, cəhalətlə mübarizə uğrunda nümayiş etdirdiyi əvəzsiz səy və digər xidmətləri barədə söhbət açmağa çalışdığımız üçün onun bioqrafiyası üzərində dayanmaq niyyətimiz yoxdur. Lakin məlumat üçün qeyd etmək yerinə düşər ki, bu ziyalı xanım Avropa təhsili almış böyük maarifçi, tarixçi, "Qarabağ xanlığının siyasi vəziyyətinə dair" əsərinin, eləcə də çoxsaylı şeir və tərcümələrin müəllifi olan Əhməd bəy Cavanşirin qızıdır. Əhməd bəy dövrünün işıqlı şəxsiyyətlərindən olmaqla, xalqın savadlanması, rifahının yaxşılaşması üçün əlindən gələni əsirgəməmişdir.

Təsadüfi deyil ki, belə görkəmli simanın qızı olan Həmidə xanım da əsl xalq təəssübkeşi idi. Xalqın ağır günlərində onun yerində və zamanında qəbul etdiyi



BY NC ND

doğru qərarlar hər zaman əhalinin ağır vəziyyətinə müsbət təsir göstərmişdir. Onun 1903-cü ildə Qarabağ kəndlərində, xüsusilə uşaqlar və yeniyetmələr arasında yayılmış çiçək xəstəliyi ilə mübarizədə müstəsna xidmətləri olmuşdur. Belə ki, xəstəliyin çox sayda can aldığını görən Həmidə xanım vəziyyətdən çıxmaq üçün peyvənd olunmağın əhəmiyyətini yaxşı dərk edirdi. Elə buna görə də Tiflisə gedərək peyvənd vurmağı öyrənir və öz şəxsi vəsaiti hesabına xeyli dərman alaraq vətənə qayıdır. İnsanları bu sahədə də maarifləndirməyə başlayan Həmidə xanım əhali arasındakı nüfuz və etibarından istifadə edərək uşaqları peyvəndləməyə nail olur və bununla çoxlarını ölümün pəncəsindən xilas edir. Ümumiyyətlə, o, Polşada yaşadığı müddətdə tibbi biliklər almağa səy göstərmiş, tibbə dair xeyli kitab oxumuş və apardığı qeydlər əsasında müalicə kitabı da yazmışdı. Eyni zamanda, insanlara daha faydalı ola bilmək üçün dövrünün tanınmış həkimi Kərim bəy Mehmandarovdan mütəmadi olaraq yeni dərmanlar və müalicə üsulları barədə məlumat alırdı. Həmidə xanım həmçinin Kərim bəy Mehmandarovun rəhbərliyi ilə fəaliyyət göstərən xeyriyyə cəmiyyətində də çalışmış, ehtiyaclı ailələr, dul qadınlar, yetim və əlillər üçün ianələrin toplanmasında fəal iştirak etməklə yanaşı, özü də şəxsi ianələrini əsirgəməmişdir.

Sözsüz, Həmidə Cavanşirin xeyirxah xidmətləri heç də yuxarıda sadalananlarla məhdudlaşmır. 1907-ci ildə Qarabağda aclıq hökm sürəndə o öz şəxsi ehtiyatında olan bütün ərzağı kasıblara təmənnasız paylamışdı. Onun bu fədakar əməli Bakıda qəzet səhifələrində işıqlandırılmış və Həmidə xanım Bakıya – aclıq və səfalət içində olan əhalinin durumunu müzakirə etmək üçün təşkil olunmuş konfransa dəvət olunmuşdu. Lakin dövrün ruhaniləri və bəzi qoçular müsəlman qadının kişilər qarşısında üzüaçıq məruzə edəcəyini eşidib onun iştirakına əngəl olmuşdular. Uzaqgörən Həmidə xanım öz məruzəsini göndərsə də, məsələ böyüməsin deyə konfransda iştirakdan imtina edir. Elə həmin ildə Qarabağda çəyirtkə axınına məruz qalan əkin sahələrinin məhv olması səbəbindən Həmidə xanım yenə öz köməyini əsirgəmir və öz evində hər gün çörək bişirtdirib ehtiyacı olanlara paylayır.

Həmin dövrdə Qarabağ əhalisinin ağır vəziyyəti sürətlə yayılan yatalaq xəstəliyi ucbatından bir qədər də çətinləşir. Həmidə xanım yenə baş verən hadisələrə biganə qala bilmir və qubernatora (Kovalyov) ünvanladığı məktubda camaatın acınacaqlı vəziyyəti barədə məlumat verərək ciddi tədbirlər görməyi rica edir. Bundan sonra xəstəliklə mübarizə aparmaq üçün məşhur gürcü həkimi Topuridze bu bölgəyə ezam edilir. Belə çətin zamanda xəstəliklə mübarizəyə dəstək olmaq üçün Tiflisdə yaşayan həmyerlilərimiz, o cümlədən Bakıdan H.Z.Tağıyev də ianələri Qarabağda məhz Həmidə xanımın adına göndərirlər.

Həmidə xanımın sosialyönümlü fəaliyyətinin təqdirəlayiq cəhətlərindən biri də daim qadınların maariflənməsi, onların sosiallaşması, işlə təmin olunması üçün yorulmadan çalışması idi. Bu məqsədlə o, Tiflisdən öz hesabına tikiş alətləri alıb Şuşaya gətirtmiş və onları həm Azərbaycan, həm də erməni əsilli qadınlara paylayaraq qadınların da sosial əməklə məşğul olmasına çalışmışdır. Həyat yoldaşı Cəlil Məmmədquluzadə onu daim bu işdə dəstəkləyir, mütəmadi olaraq kənddən yun alıb göndərirdi. Həmidə xanım toxuculuqla məşğul olan həmin qadınlara öz istəklərinə uyğun olaraq məvacib əvəzinə un verirdi. Sonralar (1918) işi bir qədər də genişləndirmək məqsədilə həkim Mehmandarovun yardımı ilə Şuşa bazarının yaxınlığındakı məscidin nəzdində tikiş emalatxanası təsis etməyə nail olan Həmidə xanım bu məscidi öz himayəsinə götürür və buraya daha səkkiz tikiş aləti alır. Əlavə

heç bir gəlir əldə etməsə də, bu təşəbbüs ona böyük zövq verir və işin daha da irəliləməsi üçün dayanmadan çox böyük əmək sərf edir. Həmidə xanım yaxşı başa düşürdü ki, burada əsas məqsəd gəlir əldə etmək deyil, qız-gəlini işə alışdırmaq, onlara yeni peşə öyrətmək idi. Həmin dövrdə Şuşaya gələn hərbi nazir Səməd bəy Mehmandarov da Həmidə xanımın bu fədakar təşəbbüsünü yüksək qiymətləndirmiş, sözügedən emalatxananı gəzərək çox bəyəndiyini və ordu üçün bəzi geyimləri məhz burada sifariş edəcəyini bildirmişdi. Qadınların güclənməsi, öz hüquqlarını anlaması və onları müdafiə etməsi, maariflənməsi və təhsil alması Həmidə xanımı hədsiz xoşbəxt edirdi. Onun "Şərq qadını" məcmuəsinin nəşrinin birillik bayramı münasibətilə redaksiya heyətinə ünvanladığı təbrik məktubunda ifadə etdiyi fikirlər buna bariz nümunədir: *"...Bir vaxt vardı ki, məclislərdə Şərq qadını adını çəkənə dəli-divanə deyirdilər. Çünki Şərq qadını ləfzini kişilər içində söyləmək eyib iş sayılırdı. Onun üçün də biz, elə günləri görən Şərq qadınları intəhasız fəxr edirik ki, qızlarımız meydana çıxıb özlərinə məxsus bir qadın cəridəsi ilə öz varlıqlarını bildirmək istəyirlər... İndi dəxi o vaxt deyil ki, şəriətin yumruğu Şərq qadınının üstünü alıb deyə "yum gözlərini!" İndi dəxi keçdi o qaranlıq günlər ki, evlərin pəncərələrinə qara pərdələr çəkilmişdi ki, dörd divar içindəki qadınlar gün üzü görməsinlər. Mən ümidvaram ki, bayramını saxladığımız "Şərq qadını" məcmuəsinin bayrağı altına aybaay və ilbəil o qədər Şərq qadını toplanacaq ki, buradan qadın azadlığının şöləsi tək bir Bakıya yox, tək Azərbaycana yox, bəlkə Şərqin çox-çox yavuq və uzaq ölkələrinə yayılacaqdır..."* [5, s.145]

Həmidə Cavanşirin xeyriyyəçilik fəaliyyəti sərhəd tanımırdı. Həmin dövrdə erməni-müsəlman münasibətlərinin ürəkaçan olmamasına baxmayaraq, aclıq və səfalət vaxtı bu səxavətli qadın Şuşada məskunlaşmış kasıb erməni ailələrini də diqqətdən kənar qoymurdu. Edilən yardımların birbaşa ünvanına çatdığından əmin olmaq üçün Həmidə xanım yoxsul erməni kəndlilərinə paylanan ərzağa şəxsən özü nəzarət edirdi. Belə ki, bu haqda "Xatirələrim" kitabında deyilir: *"...Kasıblar ac-yalavac idilər... Bu barədə mən Mirzə Cəlilə yazdım, o da kənddən iki araba un göndərdi. Unun bir hissəsini kasıb müsəlmanlara payladım. Eynilə belə bir miqdarı da ermənilər üçün ayırdım. Ancaq erməni yoxsullarının siyahısı bizdə olmadığından, qərara gəldik ki, ermənilər üçün ayırdığımız undan hissə-hissə çörək bişirtdirək və onların kilsəsində bu çörəyi kasıblara paylayaq. Çörək paylayacağımızı əvvəlcədən elan etdik. Ehtiyacı olanlar kilsənin həyətinə toplaşdılar. Mərhum qızım Mina və oğlum Müzəffər aşpazımız Səkinə ilə Qalanın erməni səmtinə getdilər. Hambalların daşıdığı çörəyi kilsənin həyətinə aparıb erməni yoxsullarına payladılar.*

*Deyirdilər ki, bu hadisə erməni zadəganlarını çox utandırmış və pərt etmişdi. Bundan sonra onlar da öz aralarında ianə toplamış və öz kasıblarına yardım etməyə başlamışdılar*" [3, s.183]. Həmidə xanımın öz dilindən verilən real məlumatlardan bir daha aydın olur ki, azərbaycanlılar daim mərhəməti, öz səxavəti ilə seçilmiş və digər millətlərə örnək olmuşlar.

Bir el anası kimi belə məsuliyyətli, öz dövrü üçün çətin hesab olunan işlərin öhdəsindən gəlmək heç də asan deyildi. Lakin Cəlil Məmmədquluzadə və Həmidə Cavanşir bir-birinin ən böyük dəstəkçisi olduqları üçün maneələri aradan birgə qaldırır və sonda məqsədlərinə nail olurdular. Onların həyatı ilə yaxından tanış olduqda bunu aydın görmək mümkündür. Təsadüfi deyil ki, Həmidə xanımla görkəmli dramaturqun tanış olduğu ilk gündə məhz Cəlil Məmmədquluzadə özü ona müsəlman qadınlarından ibarət xeyriyyə cəmiyyəti təsis etmək təklifini vermişdi.

Sonradan həmin işi uğurla həyata keçirməyə müvəffəq olan Həmidə xanımın təqdirəlayiq təşəbbüsü (1905-1917) Bakıda və Gəncədə də bu tipli cəmiyyətlərin qurulmasına zəmin yaratmışdı. Lakin buradakı ruhani qüvvələri belə xeyirxah bir işin baş tutmasına əngəl olmuşdular.

Yuxarıda da qeyd edildiyi kimi, Həmidə xanımın ictimai fəaliyyəti çoxşaxəli olmuşdur. Onun maarif və təhsil naminə könüllü şəkildə gördüyü işlər saya-hesaba gəlmirdi. Qızların oxuması, onların savadlı olması üçün hər zaman əlindən gələni əsirgəməmişdir. Xüsusilə ana dilinin tədrisinə önəm verən Həmidə xanımın bu istiqamətdə atdığı addımlar daha təqdirəlayiqdir. Qızı Mina Tiflisdəki Nücəba Qızlar Universitetində oxuyarkən Həmidə xanımın burada müşahidə etdiyi bir məsələ onu çox narahat edir. Müxtəlif millətlərdən olan təhsil alanlara fərqli elmlərlə yanaşı, öz doğma dilləri də tədris olunurdu. Təkcə türk dili istisna təşkil edirdi. Həmidə xanım bu haqda dəfələrlə təhsil müəssisəsinin rəhbərliyinə müraciət etsə də, aldığı cavab eyni olurdu: "Uyğun kadr yoxdur və bunun üçün heç vəsait də ayrılmayıb". Bu zaman Həmidə xanım yeni türk dili müəlliminin işə götürülməsi üçün lazım olan bütün xərcləri qarşılamağa hazır olduğunu bildirir. Ona şeyxülislamla məsləhətləşmək tövsiyə olunur. Şeyxülislamın qəbulunda olarkən bu məsələ barədə ona məlumat verir və ali təhsil ocağına türk dili müəlliminin təyin edilməsi üçün tələb olunan bütün xərcləri öz üzərinə götürməyə hazır olduğunu vurğulayır. Şeyx Həmidə xanımın gəliş səbəbini öyrənəndə çox məmnun olur və bu təklifi yüksək qiymətləndirir. Lakin şeyxülislam da bu vəzifə üçün hələlik uyğun bir namizədin olmadığını bildirir. Belə ki, ehtiyatda yaşlı türk dili müəllimi yox idi, gənc müəllimi isə bu vəzifəyə təyin etmək məqbul sayılmırdı. Lakin uzun söhbətdən sonra şeyxülislam tez-tez təhsil ocağına baş çəkəcəyinə və tələbə qızların türk dili bilgilərinin təkmilləşdirilməsi ilə şəxsən məşğul olacağına söz verir. Həqiqətən də bundan sonra Həmidə xanım qızından təhsili ilə bağlı xəbər aldıqda şeyxülislamın dəfələrlə instituta gəldiyini və belə hörmətli şəxsin hər gəlişinin səs-küyə, marağa səbəb olduğunu eşidirdi. Qısa zaman ərzində instituta türk dilini tədris edən müəllim təyin edilir. Həmidə xanım əsl ziyalı, maarifpərvər bir şəxs kimi doğma dilin tədrisində çatışmayan cəhətləri aydın görür, sezir və naqisliklərin aradan qaldırılması üçün imkanı daxilində əlindən gələni əsirgəmirdi. Müəyyən müddətdən sonra institutda yenə türk dilini tədris edən müəllimə ehtiyac yaranır. Həmidə xanım Cəlil Məmmədquluzadədən bu məsuliyyətli işi öz öhdəsinə götürməyi xahiş etsə də, yazıçı "Molla Nəsrəddin" jurnalı üzərində qızğın çalışdığını və bu səbəbdən vaxtının azlığını bildirir. Həmidə xanım Cəlil bəyin məsləhəti ilə "Şərqi-Rus" qəzetinin keçmiş redaktoru Məmmədağa Şahtaxtinskiyə müraciət edir. İnstituta yeni türk dili müəllimi vəzifəsinə təyin edilən Şahtaxtinskinin məvacibini Həmidə xanım yenə öz üzərinə götürür. Beləliklə, həmin dövrdə Tiflis qızlar institutunda oxuyan 15 azərbaycanlı qız ana dili dərsləri almağa davam edir.

Xalqın övladlarının təhsil alması, savadlanması onun ən ümdə amallarından biri idi. Həmidə xanım bu amalın gerçəkləşməsi yolunda həyata keçirdiyi tədbirləri öz xatirələrində böyük şövqlə qələmə alır: *"Çoxdan arzulayırdım ki, Kəhrizlidə – öz kəndimizdə qızlarla oğlanların birgə oxuduğu məktəb açım. Bu məqsədlə əvvəlcədən bina da tikdirmişdim. Mirzə Cəlil mənim bu fəaliyyətimi təqdir edir və işin həyata keçməsinə yaxından kömək edirdi. O, məktəb üçün dülgər Qriqorun köməyilə 20 parta düzəltmiş və onları yağlı boya ilə özü rəngləmişdi. Kitablar, dərsliklər, dəftərlər və bütün zəruri əşyalar alınmışdı. Sonra biz kənd camaatını ümumi*

*yığıncağa çağırdıq, kəndin kişilərini və onların arvadlarını dilə tutduq ki, uşaqlarını məktəbə oxumağa versinlər. Camaatın mənə böyük etimadı və inamı vardı. Ona görə bəziləri tərəddüd etmədən qızlarının məktəbə getməsinə icazə verdi... Mənim qohumlarım həvəslə razılıq verdilər. Biz məktəbə cəmi 30 oğlan və 10 qız toplaya bildik. İlk vaxtlar məktəbdə Cəlil özü dərs keçir, qızım Minanı da dərs deməyə hazırlaşdırırdı... Yoxsul şagirdlərə paltar və ayaqqabı pulu verirdim. Ümumiyyətlə, kənddə ehtiyacı olan hər kəsə imkan daxilində kömək edirdim, təmənnasız müalicə edir, pulsuz dərman, kinə və s. verirdim*" [3, s.131-132].

Həmidə xanımın təhsilin inkişafı yolunda gördüyü əvəzsiz işlər bununla bitmirdi. O, daim xalqın savadlanması, uşaqların məktəbə gedə bilməsi, tədris prosesində ana dilinə diqqət yetirilməsi üçün çalışmış, buna görə hər zaman maddi-mənəvi bütün imkanlarını səfərbər etmişdir. Hətta atası Əhməd bəy Cavanşirin şeirlərindən ibarət tərtib etdiyi kitabın satışından əldə olunan gəliri də Müsəlman qızlar məktəbinə bağışlamışdı [10, s.17]. Həmidə xanım belə fədakar addımları, nümunəvi davranışı ilə hər zaman əsl vətənpərvər ziyalı mövqeyi nümayiş etdirmişdir.

Bu ziyalı xanım öz inamlı duruşu, əhatəli dünyagörüşü, dil bilgiləri ilə daim diqqət cəlb etmişdir. Bir dəfə Qarabağa səfər edən ingilis generalı Şatelvordun şərəfinə Şuşada ziyafət təşkil olunur və şəhərin ictimai xadimləri, o cümlədən Həmidə xanım da buraya dəvət edilir. Ziyafət ərəfəsində Həmidə xanımın müsəlman olduğunu öyrənən ingilis generalı onunla söhbət əsnasında fəaliyyəti barədə maraqlanmış və bu ziyalı xanımı İngiltərədə qadınlar və kişilər arasında bərabərhüquqluluğa nail olmuş sufrajistlərə bənzətmişdi [10, s.64]. Zənnimizcə, ingilis general bu düşüncəsində yanılmamışdı. Belə ki, Həmidə xanım, həqiqətən də, qadın və kişi hüquqlarının bərabərliyi uğrunda yorulmadan çalışan və bu yolda cəsarətli addımlar atan güclü bir qadın idi. Təsadüfi deyildir ki, o, həm də Qafqazda, o cümlədən Azərbaycan tarixində ilk məruzəçi xanım kimi yaddaşlara həkk olmuşdur. Müsəlman qadının kişilər qarşısında məruzə ilə çıxış etməsi hər nə qədər dövrün gerifikirli insanları tərəfindən tənqid olunsa da, Həmidə xanım bu işin öhdəsindən də məharətlə gəlməyi bacarmışdı. 1912-ci ildə Tiflisdə Zaqafqaziya pambıqçılarının XIII qurultayında Qarabağ təsərrüfatçılarını təmsil edən bu nüfuzlu mülkədar xanım təkcə sözügedən sahəni əhatə edən məsələlərə toxunmamış, həm də əhalini narahat edən bir sıra mühüm problemləri ictimaiyyətin diqqətinə çatdırmışdı: *"...Kəhrizlərin suyu çatmır və biz yazda Qarqar çayından gələn kanalın suyundan istifadə edirik. İndi mülkədarlar Qarqarın suyunu işlədib aşağı buraxmırlar... sərəncam vermək lazımdır ki, Qarqarın suyu bütün arxlar arasında bərabər paylansın... İşlərimizə mane olan cəhətlərdən biri də nəinki kənd yollarının, hətta şose yollarının belə bərbad vəziyyətdə olmasıdır... Əhali yaxşı yol həsrətilə yaşayır... Bizim tərəflərdə əhaliyə tibbi yardım qətiyyən göstərilmir. Bizdə və qonşu rayonlarda nə bir feldşer, nə də həkim var... Buna görə savadlı fəhlələr və sahibkarlar bizim tərəflərə gəlmək istəmirlər...*" [7, s.57-59] Tarix üzrə fəlsəfə doktoru Əlizadə Nəcəfov "Həmidə Məmmədquluzadənin maarifçilik fəaliyyəti" kitabında həmin məruzənin mətnini (A.Zamanovun tərcüməsində) oxucular üçün olduğu kimi təqdim etmişdir. Sözügedən məruzədən yuxarıda verilmiş kiçik parçada əhali ilə sıx təmasda olan Həmidə Cavanşirin əsl xalq təəssübkeşi, el anası olduğu parlaq şəkildə özünü büruzə verir. Bu müdrik qadın təkcə xalqın sıxıntılarını dilə gətirməklə kifayətlənməmiş, həm də öz imkanları, geniş əlaqələri hesabına mövcud çətinlikləri aradan qaldırmağa çalışmışdır. Hətta atasının

vəsiyyəti üzrə bu müqəddəs yolda şəxsi sərvətini xərcləməkdən belə heç zaman çəkinməmişdir.

**Nəticə.** XX əsrin əvvəllərində, hələ cəhalətin hökm sürdüyü o qaranlıq zamanda Həmidə Cavanşir öz xeyirxah əməlləri ilə xalqın yolunu aydınladan unudulmaz şəxsiyyətlərdən birinə çevrildi. Təmənnasız yaxşılıqlar, yerində alınmış faydalı qərarlar, səriştəli idarəetmə qabiliyyəti sayəsində Həmidə Məmmədquluzadənin əhali arasındakı nüfuzu daha da artırdı. Təsadüfi deyildi ki, camaat bu mülkədar xanımla hesablaşır, onun hər sözünə dəyər verir, əsl el anası kimi xətrini uca tuturdu. Həmidə Cavanşirin çoxşaxəli fəaliyyəti, həqiqi ziyalı mövqeyi yalnız və yalnız xalqın mənafeyinə xidmət etməkdən ibarət idi.

Kübar, işıqlı, güclü Azərbaycan qadınının bütün cəhətlərini məharətlə özündə cəmləşdirən bu yardımsevər və maarifpərvər xanım daim həyata keçirdiyi xeyriyyə işləri sayəsində əhalinin güzəranının yaxşılaşması, azyaşlıların təhsilə cəlb olunması, qadınların sosiallaşması, camaatın tibbi təminatının yüksəlməsi üçün çalışmışdır.

Əlizadə Nəcəfov haqlı olaraq müasir Azərbaycan qadınını Həmidə xanımdan örnək almağa səsləyir: *“...Müasir dövrdə bizneslə məşğul olan xanımlarımız Həmidə xanımın bir əsr bundan əvvəl dövləti və xalqı üçün etdiyi xeyriyyəçilik ənənələrindən bəhrələnə və nümunə götürə bilərlər. Çünki Həmidə xanım çox zəngin keçmişi olan bir nəslin şərəfli tarixini bugünümüzə və gələcəyə daşıyan çox mərd, mübariz və heç bir çətinlik qarşısında əyilməyən Azərbaycan xanımı olmuşdur”* [7, s.6].

Azərbaycan xalqı hər zaman Həmidə xanımın əziz xatirəsini böyük ehtiramla yad edəcəkdir!

Əlaqə
E-mail: **rehile.sadiqova_87@mail.ru**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Abbaslı, T. Mənəvi sərvətlərimizdən sayılan “Xatirələrim”i vicdan mürəkkəbinə batırıb yazmış böyük Azərbaycan kübarı. Bakı: “Mədəniyyət” qəzeti, 18 yanvar 2017

2. Aranlı, Ş. Həmidə xanım Cavanşir. Bakı: “Ədalət” qəzeti, 15 fevral, 2018, s.7

3. Cavanşir, H. “Xatirələrim”. İkinci nəşr. Ruscadan çevirəni və nəşrə hazırlayan Mehriban Vəzir. Bakı: “Apostroff” MMC, 2012, 400 s.

4. Gəncəli, S. Azərbaycanı zülmətdən işığa aparan maarifçi qadınlar – Tarix. Bakı: “Modern.az” informasiya agentliyi, 14 aprel 2018

5. Mirzə Cəlil və Məmmədquluzadələr (Məktublaşma). Toplayanı və tərtib edəni İsa Həbibbəyli. Bakı: “Çinar-Çap”, 2003, 240 s.

6. Musayeva, Y. Ölümsüz eşq. “Azərbaycan” qəzeti, 05 iyul 2023

7. Nəcəfov, Ə. Həmidə Məmmədquluzadənin maarifçilik fəaliyyəti. Bakı: “Mənəvi dəyərlərin təbliği fondu”, 2018, 73 s.

8. Tağıyev, Ə. Azərbaycanda məktəb tarixi. Bakı: “Maarif”, 1993, 113 s.

9. Vahid, M. Həmidə xanımın “Xatirələrim” əsəri və pəncərəsindən görünən Şuşa. Bakı: “Ədəbiyyat qəzeti”, 15 dekabr 2022

10. Мамедкулизаде, Г. Мои воспоминания о Джалиле Мамедкулизаде. Баку: «Элм», 1970, 200 стр.

**Məqaləyə istinad:** Rəhilə Sadıqova. Zərif hami, səxavətli fədai: Həmidə Cavanşir-Məmmədquluzadə. Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 2 (25), 2023. səh.41-48.
DOİ: 10.30546/2702-0034.2023.2.25.41

***Rahila SADIGOVA***

## A GRACEFUL PROTECTRESS, GENEROUS DEVOTER: HAMIDA JAVANSHIR-MAMMADGULUZADE

***S u m m a r y***

Since the beginning of the 20th century, among the personalities who played an invaluable role in the education of the people, women educators stand out due to their intense activities. One of such intellectual ladies was Hamida Mammad-guluzade, the daughter of Ahmad Bay Javanshir, who is a prominent historian and the author of numerous poems and translations. Hamida Khanim, with her intel-ligence, skills, and financial resources, was always among people in their difficult times and carried out countless charity works. Using her influence and trust among the population, this enlightened lady involved the peasant children in education, opened a school for them, and did everything in her power to educate the young generation. Also, to ensure that Azerbaijani youth studying in Tbilisi do not stray from their mother tongue, she demonstrated a true patriotic intellectual position and teaching this subject assumed the role of a teacher. At the beginning of the 20th century, during the severe diseases spreading in Karabakh, Hamida Javanshir increased her medical knowledge and managed to vaccinate the majority of the population with the medicines she bought at her own expense.

Hamida Javanshir always made an effort for the employment and socialization of housewives and established a sewing workshop for women. Hamida, who had a gentle soul and a compassionate heart, collected donations for needy families, widows, orphans and the disabled in the charity society she founded with the advice of Jalil Mammadguluzadeh, she did not neglect them either.

The multifaceted social and educational activities of Hamida Khanim Javanshir left an indelible mark on the history of Azerbaijan in the 20th century.

***Рахиля САДЫГОВА***

## НЕЖНАЯ ПОКРОВИТЕЛЬНИЦА, ЩЕДРАЯ САМООТВЕРЖЕННИЦА: ГАМИДА ДЖАВАНШИР–МАМЕДГУЛУЗАДЕ

***Р е з ю м е***

С начала XX века среди личностей, сыгравших неоценимую роль в просвещении народа благодаря своей интенсивной деятельности, особенно выделяются женщины-просветительницы. Одной из таких представительниц интеллигенции является Гамида Мамедгулузаде – дочь видного историка, автора многочисленных стихов и переводов Ахмед-бека Джаваншира.

Гамида ханум, обладающая глубоким умом, навыками и финансовыми возможностями, всегда находилась рядом с народом в трудные времена и проводила бесчисленные благотворительные акции. Пользуясь своим влиянием и доверием среди населения, эта просвещённая женщина привлекала к образованию детей крестьян, открыла для них школу и сделала всё возможное для получения образования новым поколением. Также, чтобы азербайджанская молодёжь, обучающаяся в Тбилиси, не забывала свой родной язык, она продемонстрировала настоящую патриотическую интеллектуальную позицию, взяв на себя все расходы преподавателя этого предмета. В начале XX века, во время распространения тяжёлых заболеваний в Карабахе, Гамида ханум, расширяя свои медицинские знания, сумела вакцинировать большую часть населения лекарствами, купленными за свой счёт.

Гамида ханум всегда старалась обеспечить работой домохозяек, основав с этой целью швейную мастерскую для женщин. Обладая нежной душой и сострадательным сердцем, Гамида ханум собирала пожертвования для нуждающихся семей, вдов, сирот и инвалидов в благотворительном обществе, которое она основала по совету супруга Джалила Мамедгулузаде.

Многообразная общественная и просветительская деятельность Гамиды ханум Джаваншир оставила неизгладимый след в истории Азербайджана XX века.